## IV. Təhsil müəssisələrində şagird yerləri ilə təminat normativləri

### 1. Məktəbəqədər təhsil müəssisələri

1.1. Məktəbəqədər təhsil müəssisələrində yerlər ərazi üzrə təminat 85 faiz həddində, o cümlədən 70 faiz ümumi tipli, 3 faiz ixtisaslaşdırılmış, 12 faiz sağlamlıq müəssisələri qəbul edilməklə, əhalinin demoqrafik strukturundan asılı olaraq müəyyən edilir. Yeni salınan ərazilərdə demoqrafik göstəricilər olmadıqda, təminat norması min adama 180 yer, yaşayış tikililəri olan ərazilərdə isə min adama 100 yerdən çox olmayaraq qəbul edilməlidir.